**Azərbaycanın ilk telekommunikasiya peyki bu ilin sonunda orbitə buraxılacaq**

Cari ilin sonunda «Azerspace» ilk telekommunikasiya peykinin orbitə çıxarılması nəzərdə tutulur. Yer səthinin müşahidə və tədqiqatı üzrə aşağı orbitli kiçik həcmli peykin orbitə çıxarılması isə 2013-cü ilə planlaşdırılır. Bu sahədə xarici peykin region üzərində icarəyə götürülməsi isə bu il həll olunmalıdır.

AzərTAc-a bu barədə rabitə və informasiya texnologiyaları naziri Əli Abbasov məlumat vermişdir. Nazir bildirmişdir ki, əsas və ehtiyat idarəetmə mərkəzlərinin tikintisinə başlanılmış və bu ilin avqustunda idarəetmə sisteminin qurulması üçün peyk şirkətinə təhvil veriləcəkdir. Peyk və peykin idarəetmə və istismarı üçün ABŞ, Fransa və Malayziyada mütəxəssislərin hazırlığı aparılmışdır. Bu proses bu il də davam etdiriləcəkdir.

«Azerspace» ABŞ-ın «Orbital Sciences» korporasiyası tərəfindən ən son texnoloji yeniliklərə əsaslanan «Star-2 Bus» platforması üzərində yığılır. Hazırda bu platforma üzərində yığılmış 22 peyk böyük müvəffəqiyyətlə istismar edilməkdədir.